**Səbahəddin Əli**

# XƏZ PALTOLU MADONNA

Tərcüməçi:
B.Nəriman

qanun nəşriyyatı

**Sabahattin Ali**

# KÜRK MANTOLU MADONNA

İşsiz gənc keçmiş məktəb yoldaşının köməyi ilə bankda işə düzəlir. Orada məzlum, talesiz bir qoca – həyatı məğlubiyyətlərlə dolu Raif əfəndi ilə tanış olur. Ömrünün son günlərini yaşayan qocaya həyan olmaq istəyən gənc bir gün onun gündəliyini vərəqləyir. Və bütün həqiqətlərə də elə bu gündəlik güzgü tutur.

Gənc yaşlarında Raif əfəndi atasının sənətini davam etdirmək üçün Berlinə yollanır. Burada incəsənətə olan marağı onu rəsm qalereyasına getməyə həvəsləndirir. Qalereyadakı tablolardan birinə heyranlıqla tamaşa edən Raif tez-tez bura gəlib “Xəz paltolu qadın”ın portreti qarşısında seyrə dalır. Rəsmin müəllifi Mariya Puder adlı bir xanımdır və o, bir gün bu gənci kənardan izləməyə son qoyub ona yaxınlaşır. Söhbət etdiyi qadının portretin sahibi olduğunu öyrənəndə isə Raifin həyatı bir daha geri dönüşü olmayacaq şəkildə dəyişir.

**Sabahattin Ali** **KÜRK MANTOLU MADONNA**
**Səbahəddin Əli** **XƏZ PALTOLU MADONNA**
Bakı, Qanun Nəşriyyatı, 2023, 240 səh.

Janr: fiction/roman/sevgi
Ölçü: 120x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 15.06.2023

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: B.Nəriman
Korrektorlar: Nigar Musa
Lalə İsmayıl
Elnarə Əhməd
Texniki redaktor: Lalə Hüseyn
Qapaq dizaynı: Rəsul Həsən
Mətn dizaynı: Rahilə Şamilqızı

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-575-0

© Qanun Nəşriyyatı, 2019; 2021; 2023
© "Remzi" Kitabevi, 1943

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli
hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

* * *

Bu vaxta qədər təsadüf etdiyim adamlardan bir nəfərin mənə son dərəcə qüvvətli təsiri olmuş, həyatımda silinməz iz buraxmışdır. O vaxtdan günlər, aylar gəlib keçmiş, lakin mən bu təsirdən heç cür yaxa qurtara bilməmişəm. Tək qaldığım zamanlar Raif əfəndinin saf üzü, birisi ilə üz-üzə gələndə, gülümsəməyə çalışan bu adamın dalğın və bir qədər də ürkək baxışları gözlərimin qabağında canlanır. Halbuki o, heç də fövqəladə bir şəxs deyildi. Əksinə, başqalarından fərqlənməyən, hər gün ətrafımızda yüzlərcə gördüyümüz adi adamlardandı. Onda zahirən insanı maraqlandıran bir xüsusiyyət arayıb-tapmaq mümkün deyildi. Adətən bu cür adamları görəndə öz-özümüzdən soruşuruq: "Görəsən, bunlar nə üçün yaşayırlar? Yaşamaqda nə görürlər? Hansı məntiq, hansı sirr bunları yer üzərində dolaşıb nəfəs almağa məcbur edir?" Lakin əsl mətləb də elə ondadır ki, bu adamların zahiri görünüşləri bizi belə düşündürür. Biz heç ağlımıza da gətirmirik ki, axı onların da çiyinlərində başları var, bu başların içində isə heç kəsin istəyib-istəməməsindən asılı

olmayaraq, düşünən beyin var, hərənin özünə görə daxili aləmi var. Amma biz bu aləmə, onun sirlərinə bələd olmadan, elə-belə, ötəri üzlərinə baxıb, onların mənən yaşadıqları barədə hökm veririk. Lakin maraqlanıb bu gizli aləmə nəzər salsaq, xəyalımıza belə gətirə bilməyəcəyimiz şeylər görər, gözləmədiyimiz mənəvi zənginliklərlə qarşılaşarıq. Qəribə orasıdır ki, nədənsə insanlar çox vaxt güman edib tapacaqları şeyləri axtarıb araşdırmağı daha üstün tuturlar. Əjdaha girmiş quyuya düşməyə razılıq verəcək bir igid tapmaq, əlbəttə, asan iş deyil. Lakin içindən xəbərsiz olduğumuz quyuya enməyə cürət edə biləcək adam tapmaq bundan qat-qat çətindir. Mən də Raif əfəndini təsadüfən tanımışam, bir təsadüf nəticəsində yaxından tanımışam.

Bir bankda kiçik məmur vəzifəsindən azad edilmişdim. (Əslində oradan qovulmuşdum və bunun səbəbini hələ indi də bilmirəm. Vəzifəmin qənaət xatirinə ixtisara düşdüyünü söyləsələr də, tezliklə yerimə bir başqa adam götürmüşdülər.) Mən uzun müddətdi Ankarada iş axtarırdım. Cibimdə qalmış beş-on quruşla yay aylarını birtəhər dolandım. Lakin yaxınlaşan qış elə bil xəbərdarlıq edib mənə deyirdi ki, artıq bir azdan yoldaşlarının yanında qala bilməyəcəksən, taxt üzərində rahat-rahat uzanıb yatmalı olmayacaqsan.

Cəmi bir həftədən sonra aşxana haqqını verməк lazımdı, lakin borcumu ödəyəcək qədər pulum yox idi. Qəbul imtahanlarının çoxusunu versəm də, bu işdən bir şey çıxmayacağını qabaqcadan bilirdim, ancaq yenə də axırını gözləyir,

əzab çəkirdim, üzülürdüm. Ayın-oyun almaq üçün, yoldaşlarımdan gizlincə ağız açdığım dükanlardan rədd cavabı alanda dilxor olur, gecəyarısına qədər küçələri boş-boşuna dolaşırdım. Bəzi tanışlarımın ara-sıra dəvət etdikləri içki məclislərində də vəziyyətimin ağırlığını unuda bilmirdim. İşin qəribə cəhəti bu idi ki, əzab-əziyyətim, qəlbimdəki sıxıntı artdıqca, ehtiyacım məni gündən-günə daha bərk xırxaladıqca, məndə utancaqlıq, insanlardan uzaqlaşmaq hissi də artırdı. Əvvəllər iş tapmağı tapşırdığım, həm də mənə münasibətləri pis olmayan tanışlarıma rast gələndə gizlənmək, başımı aşağı salıb, gözlərinə görünmədən ötüb keçmək istəyirdim. Qabaqlar məni ayaqüstü də olsa qonaq etmələrini utanıb-çəkinmədən xahiş etdiyim, vicdan əzabı çəkmədən borc pul aldığım yoldaşlarıma qarşı da dəyişmişdim. “Vəziyyətin necədir?” – deyə soruşduqları zaman süni bir təbəssümlə “Pis deyil... Hərdən bir müvəqqəti iş tapıram” deyir və cəld uzaqlaşırdım. İnsanlara yaxınlaşmaq ehtiyacım artdıqca, onlardan uzaq qaçmaq arzum güclənirdi.

Bir gün axşamüstü, stansiya ilə Sərgi evi arasındakı kimsəsiz yolda ağır-ağır gəzişirdim. Ankaranın son dərəcə gözəl payız havasını sinə dolusu ciyərlərimə çəkib, ruhumda nikbin bir əhvali-ruhiyyə yaratmağa çalışırdım. Xalq evinin[1] şüşələrində əks olunub, ağ mərmər binanı qan rənginə boyayan günəş... akasiya və xırda şam ağaclarının üstündə görünən, lakin buxarmı, tozmu olduğu bilinməyən toran-

[1] Xalq partiyasının mədəni-maarif ocağı.

lıq... hansı tikintidəsə işləyib yorulmuş, belləri bükülmüş, lal-dinməz evə qayıdan cırıq paltarlı fəhlələr... avtomaşın təkərlərinin yer-yer izi qalmış, harayasa uzanıb gedən asfalt yol... Hər şey adamın üzünə gülürdü... hər şey qaydasında, öz yolu ilə gedirdi. Mən də bu ümumi axına tabe olmalı, dinib-danışmadan bu axına qoşulmalıydım.

Elə bu vaxt yanımdan sürətlə bir avtomaşın keçdi. Dönüb baxanda mənə belə gəldi ki, avtomaşında oturan adamı tanıdım. Maşın beş-on addımlıqda dayandı, qapı açıldı, məktəb yoldaşım Həmdi başını bayıra çıxarıb məni səslədi.

Yaxınlaşdım.

– Hara gedirsən?

– Heç yerə, gəzişirəm!

– Elə isə gedək bizə!

Cavabımı gözləmədən yanında mənə yer göstərdi. Yolda söhbətindən başa düşdüm ki, işlədiyi şirkətin fabriklərinə baş çəkməyə gedibmiş, indi də geri qayıdır. “Gələcəyimi teleqramla xəbər vermişəm. Hər halda hazırlıq görməmiş olmazlar. Yoxsa cürət edib səni evə dəvət etməzdim”, – dedi...

Gülümsədim.

Əvvəllər Həmdi ilə tez-tez görüşərdik. Amma bankdan çıxandan sonra onu görməmişdim. Maşın, avadanlıq ticarətində vasitəçilik edən, meşə və taxta avadanlığı ticarəti ilə məşğul olan bir şirkətdə müdir müavini vəzifəsində işlədiyini və yaxşı pul qazandığını bilirdim. Məhz buna görə də işsiz vaxtlarımda ona müraciət etməmişdim. Elə bilərdi ki, yanına iş istəməyə yox, pul almağa gəlmişəm.

– Yenə də bankda işləyirsən? – deyə soruşdu.

– Xeyr, oradan çıxmışam, – dedim.

Təəccüblə:

– Bəs harada işə giribsən?

Könülsüz cavab verdim:

– İşləmirəm.

Məni başdan-ayağa süzüb, tökülmüş əyin-başıma baxdı. Gülümsəyib əlini dostcasına çiynimə vurdu. Məni evinə dəvət etdiyinə peşman olmadığını göstərməyə çalışdı.

– Elə bu axşam danışıb söhbət edər, bir çarə taparıq. Kədərlənmək lazım deyil! – dedi.

Özündən, vəziyyətindən razı, verdiyi sözü yerinə yetirə biləcəyinə əmin adamlar kimi danışırdı. Deməli, artıq onun tanış-bilişə kömək əli uzatmaq imkanı da vardı. Qibtə etdim. Kiçik, lakin rahat bir evdə yaşayırdı. Arvadı da suyuşirin bir qadın idi. Heç də utanıb-çəkinmədən qabağımda öpüşdülər. Həmdi məni tək qoyub yuyunmağa getdi. Məni öz arvadı ilə tanış etmədiyi üçün, nə edəcəyimi bilmədən qonaq otağının ortasında quruyub qalmışdım. Qadın da qapı ağzında durub gözaltı məni süzürdü. Bir qədər fikirləşdi, görünür, fikrindən "Buyurun oturun" demək keçdi. Lakin sonra lazım bilməyib, yavaşca otaqdan çıxdı.

Başqalarına qarşı heç vaxt etinasız olmayan, ədəb qaydalarına çox fikir verən, hətta bu mərtəbəyə qismən də mərifəti sayəsində çatmış Həmdinin məni nə üçün bu cür, ortalıqda, tək buraxıb getməsi barədə düşündüm. Görünür,

onun bu hərəkəti, böyük vəzifələrə keçən adamlara xas olan əsas xüsusiyyətlərdən biri idi – köhnə, lakin həyatda özlərindən aşağı pillədə duran yoldaşlarına qəsdən etinasızlıq göstərmək... "Siz" deyə müraciət etdikləri dostlarına birdən-birə kobudcasına "sən" demək, adamın sözünü yarıda kəsib, mənasız bir söz soruşmaq, həm də bunu təbii şəkildə etməyə çalışmaq, hətta çox vaxt şəfqət və mərhəmətlə gülümsünə-gülümsünə... Son günlər belə şeyləri çox görmüşdüm, ona görə də əsəbiləşmədim, Həmdiyə acı bir söz deməyi ağlıma da gətirmədim. Dinməzcə heç bir söz demədən çıxıb getmək, bu cansıxıcı vəziyyətdən xilas olmaq haqqında fikirləşirdim. Lakin elə bu vaxt ağ önlüklü, başı yaylıqlı, yaşlı bir kəndli qadın səssiz-səmirsiz içəri girdi. Ayaqlarının səsi də çıxmırdı. Yamaqlı qara corab geymişdi. Qəhvə gətirmişdi. Parçasına çiçək şəkilləri toxunmuş mavi rəngli kürsülərdən birində oturdum. Ətrafa baxdım. Divarlardan ailə üzvlərinin və artistlərin şəkilləri asılmışdı. Bir tərəfdə evin xanımına mənsub olduğu hiss edilən kitab rəfində hərəsi iyirmi beş quruşluq bir neçə roman, moda məcmuələri vardı. Siqar stolunun alt gözündə əzik-əzik bir neçə albom qoyulmuşdu. Yəqin ki, bu evə gələnlər tez-tez vərəqləyib baxdıqları üçün albomlar bu hala düşmüşdü. Nə edəcəyimi bilmədiyimdən onlardan birini götürüb açmaq istəyirdim ki, Həmdi qapıda göründü. Bir əli ilə hələ qurumamış saçlarını darayır, o birilə yaxası açıq-ağ fransız köynəyini düymələyirdi.

– Hə, söylə görək güzəranın necədir? – deyə dilləndi.

– Heç!.. Məgər bayaq danışmadım?

O sanki məni gördüyünə sevinirdi. Görünür, çatdığı mərtəbəni, cah-calalını nümayiş etdirmək fürsəti tapdığına görə, yaxud da mənim günümə düşmədiyinə görə sevinirdi.

Həyat yollarında bir müddət birlikdə addımladığımız tanış adamların başına bir fəlakət gəldiyini, müəyyən bir çətinliyə düşdüyünü görəndə "yaxşı ki, bu fəlakət bizə toxunmadan sovuşub keçmişdir" deyə şad olub fərəhlənirik. Belə fikirləşirik ki, bizim də başımıza bədbəxtlik, fəlakət gələ bilərdi, lakin o adamlar bizim payımızı da götürmüşlər, ona görə də onlara mərhəmət hissi ilə yanaşmaq istəyirik. Elə bil Həmdi də bu hisslərlə yaşayırdı.

– Yazıdan-zaddan yazırsan?

– Ara-sıra... Şeir, hekayə yazıram.

– Bir xeyri olur?

Yenə gülümsədim. O, "canım, əl çək belə işlərdən", – dedi. Ədəbiyyat kimi boş, mənasız şeylərin, məktəbdən başqa, hər yerdə zərəri barədə söhbətə başladı. Ona cavab qaytarıla bilər, mübahisə etmək olar fikrini heç ağlına da gətirmədən danışırdı. Elə bil balaca bir uşağa nəsihət verirdi. Bu cəsarəti həyat məktəbindən aldığına işarə etməkdən də çəkinmirdi. Özüm də hiss edirdim ki, üzümdə süni bir təbəssüm dolaşır, heyran adamlar kimi baxır və bu hərəkətimlə onu daha da həvəsə gətirirdim.

– Sabah mənə baş çəkərsən, – dedi. – Baxarıq, bir şey fikirləşərik. Yadımdadır, uşaqlıqda sən ağıllı olsan da, bir o

qədər də çalışqan, zəhmətsevər şagird deyildin. Ancaq indi bunun bir o qədər də əhəmiyyəti yoxdur. Həyat, ehtiyac, zərurət insana çox şey öyrədir... yadından çıxmasın, səhər tezdən mənə baş çəkərsən!

Elə bil məktəbdə ən tənbəl uşaqlardan biri olduğunu tamam unutmuşdu. Yaxud da indi bunu üzünə vurmayacağıma əmin olduğu üçün utanıb-çəkinmədən belə ürəkli danışırdı. Yerindən qalxmaq istəyirmiş kimi bir hərəkət etdi. Cəld ayağa durdum. Əlimi uzadıb dedim:

– Müsaidənizlə gedim!

– Canım, nə üçün belə tez... Amma özün bilən yaxşıdır.

Tamam unutmuşdum, birdən yadıma düşdü ki, axı o məni nahara dəvət etmişdi. Amma indi, bunu, deyəsən, tamam yadından çıxartmış adama oxşayırdı. Papağımı götürdüm.

– Xanım əfəndiyə hörmətimi bildirin! – dedim.

– Yaxşı, yaxşı. Sabah mənə baş çəkərsən. Bildin?! Canım, utanıb eləmə! – deyib əlini çiynimə vurdu.

Eşiyə çıxdım. Ətraf tamam qaranlığa bürünmüşdü, küçə lampaları yanırdı. Dərindən nəfəs aldım. Hava bir qədər tozlu-tozanaqlı olsa da, mənə son dərəcə təmiz və xoş gəldi. Aram-aram yola düzəldim.

Ertəsi gün, günortaya yaxın Həmdi işləyən şirkətə getdim. Halbuki dünən axşam onun evindən çıxanda, qətiyyən belə fikrim yoxdu. Çünki elə bir qəti təklifi olmamışdı. Müraciət etdiyim adamlardan eşidib alışdığım: "fikirləşib

baxarıq, bir şey edərik" kimi sözlərlə məni yola salmışdı. Buna baxmayaraq getdim. Ürəyimdə ümiddən daha çox, özümü tapdalanmış, xəcil bir adam vəziyyətində görmək arzusu vardı. Öz-özümə: "Məgər dünən axşam Həmdinin qabağında dinməz-söyləməz dayanıb onun nə dediyinə qulaq asmadın, özünü sənə bir xeyirxah adam kimi qələmə verməsilə razılaşmadın? Bəs indi nə olub? Bütün bunlara sona qədər dözməlisən, çünki sən buna layiqsən!" – demək istəyirdim.

Xadimə məni kiçik bir otağa ötürdü, burada gözləməyi tapşırdı. Həmdinin yanına girdiyim zaman yenə də dünənki kimi axmaqcasına gülümsədiyimi hiss etdim, özümə daha bərk acığım tutdu. Həmdi qabağındakı kağızlarla və içəri girib-çıxan məmurlarla məşğul idi. Mənə başı ilə stul göstərdi. Yenə də öz işinə davam etdi. Əlini sıxmağa cürət etməyib əyləşdim. İndi qarşımda oturan adamı, mənə hökm edən bir ixtiyar sahibi sayır, özümü itirdiyimi hiss edirdim. Çox alçalmış mənliyimi buna layiq bilirdim. Keçən axşam məni yolda öz avtomaşınına mindirən məktəb yoldaşımla mənim aramda, cəmisi on iki saatdan da az vaxt ərzində, çox böyük bir məsafə əmələ gəlmiş, bir-birimizdən çox uzaqlaşmışdıq. İnsanların münasibətlərini tənzim edən amillər nə qədər gülünc, nə qədər zahiri, nə qədər boş, mənasız olurmuş! Bunların əsl insanlıqla nə qədər də az əlaqəsi vardı! Keçən axşamdan bəri nə Həmdi, nə də mən heç də dəyişməmişdik. O da, mən də əvvəlki adamlar idik. Bununla belə, onun

mənim haqqımda, mənim onun haqqında öyrəndiyimiz bəzi incə nöqtələr bizi bir-birinə zidd istiqamətlərə aparmışdı... Məsələnin əsl qəribə cəhəti ondan ibarətdi ki, ikimiz də bu dəyişikliyi inkar etmir, onu kor-koranə qəbul edirdik, fikirləşirdik ki, bu belə olmalıdır... Mənim nə Həmdiyə, nə də özümə acığım tuturdu, təkcə ona görə əsəbiləşirdim ki, nə üçün mən burdayam, nə üçün buraya gəldim?

Otaq bir anlığa boşalan kimi Həmdi başını qaldırıb:

– Sənin üçün bir iş tapmışam! – dedi. Cəsarət və məna dolu gözlərini mənə zilləyib əlavə etdi: – Doğrusunu desək, o işi düzəltmişik. Ağır iş deyil. Bir para banklarda, əsasən bizim bankda, bəzi işlərə nəzarət edəcəksən. Necə deyim, şirkətlə banklar arasında rabitə məmuru kimi bir şey olacaq. Boş vaxtlarında idarədə oturar, şəxsi işlərinlə məşğul olarsan... İstədiyin qədər də şeir yazarsan... Mən müdirlə danışmışam, sənin haqqında əmr verəcəyik... Hələ yüksək maaş verməyəcəyik... Əvvəlcə qırx-əlli lirə... Sonra artırılar... Əlbəttə, özündən asılı olacaq. Görək nə edəcəksən... Müvəffəqiyyətlər arzulayıram.

Kürsüdən qalxmadan əlini uzatdı. Yaxınlaşıb təşəkkür etdim. Mənə yaxşılıq etdiyi üçün üzündə bir razılıq ifadəsi vardı. Deməli, o, əslində heç də pis adam deyilmiş. Görünür, bəzi qəribə hərəkətləri də tutduğu mövqe ilə əlaqədardı, ya elə bəlkə də belə olmalı idi. Lakin dəhlizə çıxanda bir müddət yerimdə quruyub qaldım: onun mənə nişan verdiyi otağıma gedim, ya buranı tərk edim, – sualları ayaq saxla-